ATMU-KTS-B(KSB)-01

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru
İ.İ.Mədətov
14 İyul 2023-cü il

Azərbaycan Turizm və Menecment Universitetinin

Keyfiyyət siyasəti

BƏYANNAMƏSİ

ATMU-nun Keyfiyyət təminatı siyasəti bütün srukturların fəaliyyətini əhatə etməklə Strategiyada qarşıya qoyulan məqsədləri əsas tutmaqla aşağıdakı prinsipləri özündə ehtiva edir:

- Daxili keyfiyyət təminatı sisteminin təşkili
- ATMU-nun fəaliyyətinin milli və beynəlxalq qanunvericiliyin tələblərinə uyğun təşkil edilməsi
- Təhsilalanların, təhsilverənlərin, eləcə də bütün ATMU heyətinin təhsil mühitinin səmərəliliyinin artırılması məqsədilə təhsil, maliyyə resurslarının artırılması, infrastrukturun təkmilləşdirilməsi və tədricən beynəlxalq standartlara çatırılması
- Təhsilalanların ali təhsillə yanaşı, sənayenin (əmək bazarının) tələblərinə uyğun, yüksək keyfiyyətlə yetişdirilməsi məqsədilə təhsil proqramlarının daimi təkmilləşdirilməsi və optimallaşdırılması
- Təhsilalanların müraciətlərinin müştəri tələblərinə uyğun və effektiv şəkildə həll edilməsi
- Bütün strukturların fəaliyyətini, eləcə də iş planlarını Strategiyaya uyğun qurması, strateji məqsədlərə nail olunması üçün mütəmadi çalışılması, onun izlənilməsi və monitorinqinin təşkili
- İnkişaf naminə strategiyada göstərilən məqsədlərin müntəzəm olaraq yenilənməsi, məsul strukturlar üzrə səlahiyyətlərin bölgüsünün aparılması ilə səmərəliliyin artırılması
- Keyfiyyət idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq monitorinq aparılması və nəzərdən keçirilməsi
- ATMU əməkdaşlarının inkişafı naminə ehtiyac üzrə təlimlərin keçirilməsi
- Keyfiyyət idarəetmə sisteminə bütün strukturların cəlb edilməsi və hər bir fərdin məsuliyyət daşıması
- Təhsilalanlar daxil olmaqla bütün heyət üzvlərinin elmi tədqiqat işlərinin dəstəklənməsi
- Təhsilalanların və təhsilverənlərin keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və hesabatlılığı
- Keyfiyyət siyasətinə təhsilalanların cəlb edilməsi
- Təhsilalanlara və əməkdaşlara davamlı və keyfiyyətli psixoloji xidmətin göstərilməsi
- Təhsilalanların, əməkdaşların asudə vaxtlarının səmərəli təşkilinə, onların sosial-humanitar fəaliyyətlərinə dəstəyin göstərilməsi
- Maraqlı tərəflərin dəqiq, şəffaf məlumatlarla təmin edilməsi üçün Keyfiyyət siyasətinin hamıya (daxili və xarici tərəflər) çatdırılması və əlçatanlığının təmin edilməsi
- Elektron sənəd dövriyyəsinin, rəqəmsallaşma xidmətlərinin mütəmadi təkmilləşdirilməsi
- Keyfiyyət siyasətinin sistematik olaraq, uyğunluq baxımından nəzərdən keçirilməsi və ehtiyac olarsa yenilənməsi.